https://doi.org/10.59849/3006-2403.2023.9.105
UOT 82-1. 512. 162

*Elnur Lətif oğlu Həsənov*
*AMEA Gəncə Bölməsinin elmi katibi*
*Gəncə ş. H.Əliyev pr., 419*
*E-mail: lnurh273@gmail.com*

# NİZAMİ GƏNCƏVİ İRSİNİN ELMİ ƏSASLARLA TƏDQİQİ HAQQINDA

*Məqalədə ötən əsrin birinci yarısında dünya şöhrətli Azərbaycan mütəfəkkiri və şairi Nizami Gəncəvinin yaradıcılığının elmi əsaslarla tədqiqi araşdırılmışdır. Burada xüsusi olaraq dahi mütəfəkkirin irsinin yalnız ədəbi mənbələr deyil, çoxsaylı tarixi məxəzlər, arxiv sənədləri əsasında öyrənilməsinə diqqət yetirilir.*

*Açar sözlər:* Nizami Ganjavi, poet, Ganja, irsi tədqiqat

Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır. Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır.

Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. Böyük Azərbaycan şairi Nizami Gəncəvinin 800 illik yubileyi ilə əlaqədar olaraq, milli tarixçilərimiz, arxeoloqlarımız və sənətşünaslarımız onun yaşadığı dövrə xüsusi diqqət ayırmışlar. SSRİ EA AzF-nın Tarix İnstitutunun "Azərbaycan memarlığı və incəsənəti" şöbəsi Azərbaycanda Nizami dövrünün tarixi-memarlıq abidələrini tədqiq etmişdir. Nizami Gəncəvinin yubileyinə hazırlıqla əlaqədar, institut Azərbaycan tarixinin öyrənilməsi üçün bir neçə il müddətində (1938-1940-cı illər) Azərbaycan Xalqlarının Tarixi Muzeyi ilə birlikdə Nizaminin vətəni qədim Gəncə şəhərində sistematik qazıntılar aparmışdır. İ.M.Cəfərzadənin rəhbərliyi ilə aparılan bu qazıntı işlərində S.Qazıyev, V.Leviatov, A.Nuriyev, V.Qraçov, Q.İone, Y.Hummel və İ.Şeblıkin fəal iştirak etmişlər. 1139-cu il zəlzələsi zamanı dağılan qədim Gəncə şəhərinin xarabalıqlarında aparılan arxeoloji qazıntılar zamanı torpaq altında qalmış tikinti sahələri təmizlənmiş və şəhərin eskiz planı tərtib edilmişdi. Arxeoloqlar şəhərin mərkəz hissəsini, Gəncəçayın sağ sahilindəki İçqalanı aşkar etmişdilər. Onlar müəyyən etmişlər ki, qalanın divarları çay daşlarından və bişmiş kərpicdən hörülmüş, İçqala və onun ətrafındakı şəhər xüsusi qala divarları ilə əhatə olunmuşdur. Şəhərin mərkəzindən digər tərəflərə keçmək üçün böyük darvazalar mövcud olmuş, sağ və sol sahil hissələrini çoxtağlı körpülər birləşdirmişdir. Gəncədə qazıntılar zamanı XII əsrə aid çoxlu məişət əşyaları və 120 ədəd sikkə tapılmış, orta əsr Azərbaycan şəhərinin mədəniyyəti barədə zəngin arxeoloji material əldə olunmuşdu. Nəticədə institut aşağıdakı işləri çapa hazırlamışdı: İ.M.Cəfərzadə "Gəncənin tarixi-arxeoloji oçerki", M.M.Altman "Gəncənin xronoqrafiyası", İ.P.Şeblıkin "Nizami dövründə Azərbaycanın memarlıq abidələri", Z.İ.Yampolski "Nizaminin dövrü haqqında", "Tarixi-arxeoloji məqalələr məcmuəsi" (İ.M.Cəfərzadə, Y.A.Paxomov, S.M.Qazıyev, V.N.Leviatov), Ə.Ə.Ələsgərzadə "Nizami dövründə Azərbaycan divar

rəsmləri", M.M.Altman "XII əsr Gəncə zəlzələsi haqqında", İ.A.Hüseynov "Nizami dövründə Azərbaycanın sosial-iqtisadi quruluşu" və "Nizamidən əvvəlki dövrdə Azərbaycan mədəniyyəti haqqında" [8, s.86-97, 131]. V.N.Leviatov 1940-cı ildə qədim Gəncədən gətirilmiş keramika nümunələrini tədqiq edərək, öz mülahizələrini "Qədim Gəncə keramikası" adlı əsərində ictimaiyyətə çatdırmışdır. Orta əsr Azərbaycan memarlığına dair ekspedisiyalar və tədqiqatlar Respublika Memarları İttifaqı ilə birlikdə institutun hazırladığı "Nizami dövründə Azərbaycan memarlığı" adlı iri həcmli yubiley monoqrafiyasının əsasını təşkil etdi.

1940-cı ildə Gəncə ərazisində qazıntılar aparan Tarix İnstitutunun əməkdaşları Nizaminin dəfn olunduğu yerdə də olmuşlar. Həmin vaxt burada yeni abidə-mavzoley kompleksinin ucaldılmasına hazırlıq işləri aparılırdı. İnstitut əməkdaşları Bakıya qayıtdıqdan sonra Azərbaycan SSR XKS nəzdindəki Nizami Yubileyi komitəsinə görülən işlər haqqında öz mülahizələrini bildirmiş və qədim mavzoleyin qabaritlərinin araşdırılması məqsədilə arxeoloji-memarlıq müayinələrinin aparılması üçün xüsusi komissiyanın yaradılması təklifi ilə çıxış etmişlər. Yubiley komitəsi tərəfindən SSR EA AzF Tarix İnstitutunun elmi əməkdaşı İ.P.Şeblıkin, SSR AzF Tarix Muzeyinin elmi əməkdaşı S.Qazıyev (sədr), muzeyin elmi katibi V.Leviatov, Nizami Muzeyinin elmi əməkdaşı C.Rəfibəyov, Memarlar İttifaqının və Yubiley Komitəsinin nümayəndələrindən ibarət xüsusi komissiya yaradıldı. Bu arxeoloji ekspedisiya Nizaminin qəbrində və onun ətrafında qazıntı işlərinə başlayır. [2] Qazıntılar zamanı A.A.Bakıxanovun "Gülüstani-İrəm", Mirzə Məhəmməd Axundovun "Şeyx Nizami" (Yelizavetpol, 1909), V.V.Bartoldun "Şair Nizaminin məzarı" (SPb., 1912), Mirabbas Mirbağırzadənin "Şeyx Nizaminin qəbri" ("Kommunist", 1923, 19 oktyabr) və "Şeyx Nizami" ("Yeni fikir",1923, 25 noyabr) Əli Razi Şamçızadənin "Bədbəxt şair" ("Kommunist", 1924, 8 oktyabr), C.Aleksandroviçin (Nəsifi) "Gəncə və Nizaminin məzarı" (1926) və s. Kimi mənbələrdə xatırlanan keçmiş mavzoleyin divarlarının qalıqları aşkar edilmişdir. Məlum olmuşdur ki, bu mavzoleydən daha qədim mavzoley mövcud olmuş, lakin naməlum səbəblərdən dağıdılmış və onun yerində - Nizaminin məzarı üzərində, V.V.Bartoldun da məqaləsində xatırlatdığı kimi, daha kiçik ölçüdə ikinci mavzoley ucaldılmışdır. Buradan göy və yaşıl rəngli şirəli kərpiclər, habelə qövsi kərpiclər tapılmışdır. Arxeoloqların fikrincə, şirəli kərpiclər, mavzoleyin həm daxildən, həm də xaricdən zəngin dekorasiyasının, eyni zamanda rəngli günbəzinin göstəricisidir. Mavzoleyin özülünün ətrafında müxtəlif qəbirlərə də rast gəlinmişdir. Bütün bunlar, ərazinin qədim Gəncə şəhərinin məzarlığı olduğunu bir daha sübuta yetirir [9, s. 32].

Məlumdur ki, 1922-ci ildə şairin qəbri açılmış və onun cəsədinin qalıqları dəfn olunmaq üçün Gəncə şəhərinə aparılmışdır. Lakin sonra rəsmi Bakının göstərişinə əsasən, şairin cəsədi elə əvvəlki yerindəcə dəfn edilmişdir. 1932-ci ildə şairin məzarı üzərində müvəqqəti abidə ucaldılmışdır. 1935-ci ildə şairin məzarının təhqiqatı, "Qədim mavzoleyin bərpası, yaxud yeni mavzoleyin tikintisi" üçün yenidən Gəncəyə səfər təşkil edilmişdi. Səfərdə Azərbaycan Arxeoloji Komitəsinin üzvləri iştirak edirdilər. Həmin vaxtda artıq özüllərdən və torpaq altında qalmış 4-5 cərgədən ibarət kərpic divar qalıqlarından başqa burada heç nə yox idi.

Məqbərə haqqında əldə olan bütün materialları arxeoloji ekspedisiyanın nəticələrilə uzlaşdıran İ.P.Şeblıkin "Nizami türbəsinin tarixinə dair" məqaləsində və "Nizami dövründəki Azərbaycan abidələri" adlı monoqrafiyasında maraqlı faktlarla çıxış edir. Onun tədqiqatlarından aydın olur ki, Nizaminin XIII əsrdə tikildiyi təxmin edilən məqbərəsinin ümumi sahəsi 7,9 x12, 8 m, özülünün qalınlığı isə 1m 72 sm olmuşdur. Bütün bunları nəzərə alan alim, Nizaminin məzarı üzərində XIII əsrdə tikilmiş məqbərənin çox nəhəng bir tikili olduğu qənaətinə gəlmişdir.

Komissiya Nizaminin müvəqqəti qəbrindən cənubda, içərisində şairin cəsədinin qalıqları olan taxta tabut, oksidləşmiş metal nümunələrinin tapıldığını müəyyən etmişdir. 1922-ci ildə Arxeoloji Komitəsinin üzvü və Nizaminin cəsədinin qalıqlarının yenidən dəfn olunması prosesində iştirak etmiş komissiya üzvü C.Rəfibəyov şahid kimi təsdiq etmişdir ki, Nizaminin cəsədinin qalıqları məhz bu tabuta yerləşdirilmiş və onun aşkar olunduğu məzarda dəfn edilmişdir. Nizaminin cənazəsi kəfənə büküldükdən sonra ipək tirmə ilə sarınmış və palıddan hazırlanmış dörd ayaqlı bir tabuta qoyulmuşdur. Tabutun özünün də tirmə ilə sarınması cənazənin çox böyük ehtiram və hörmətlə dəfn edildiyindən xəbər verir. Bu parça qalıqları Bakıdakı Nizami adına Ədəbiyyat Muzeyində saxlanılan parça qalığı ilə eyniyyət təşkil edir. Məhz bu parçadan Nizaminin tabutu üçün örtük hazırlanmışdır. Eyni zamanda dəfn yerinin üzərindən çürümüş tirlər də aşkar edilmişdir. Bu tirlər 1922-ci ildə həyata keçirilmiş dəfn prosesi zamanı ehtiyat üçün istifadə edilmişdir.

Arxeoloqların tərtib etdikləri aktda deyilir: “Komissiya qərara gəlmişdir ki, 1) Yeni mavzoleyin layihəsi tarixi faktlara söykənmir və onlar nəzərə alınmadan tərtib edilir: yenidən tikilən mavzoleyin birinci mərtəbəsinə giriş cənub tərəfdən qoyulmamalıdır; çünki bu halda məzar birbaş girişə düşəcək. Bu hal yolverilməzdir.

2) Nizaminin qəbri onun dəfn olunduğu və hal-hazırda aşkar edildiyi yerdə saxlanılmalıdır. Bu yerdə qədim kərpic sərdabənin bir hissəsi də qalmışdır. Heç bir halda cənazənin qalıqlarının hətta mavzoleyin sərhədləri daxilində belə yerini dəyişdirmək olmaz.

3) Nizaminin cənazəsinin taxta tabutda (uzunluğu 140 sm, eni 40 sm.) saxlanıldığını və bu tabutun get-gedə öz keyfiyyətini itirdiyini, bununla da mühafizə üçün təhlükə yaratdığını nəzərə alaraq, komissiya hesab edir ki, Nizaminin cənazəsinin qalıqlarını materialının möhkəmliyi ilə əlaqədar qalıqların uzunmüddətli saxlanmasını təmin edəcək xüsusi hazırlanmış, şirəli keramik tabuta yerləşdirmək lazımdır.

4) Keramik tabutun mühafizəsini təmin etmək üçün onu ilkin sərdabənin üzərində quraşdırılmış yeni sərdabədə yerləşdirmək lazımdır. Yeni tikilən sərdabə tam dəqiqliklə Nizaminin aşkar edilmiş bu məzarının yerində ucaldılmalıdır [2].

Bu dövrdə Əjdər Ələsgərzadə Nizaminin və Xəqaninin qəbirlərinin kitabələrini oxumuşdu. Bu, Şərq epitafiyası sahəsində xüsusilə önəmli hadisə, demək olar ki, sensasiya idi. Ə.Ələsgərzadə Nizami Muzeyinin Fonduna Nizaminin sinədaşının estampajını da təqdim etmişdir. Alim bu haqda ilk dəfə 1945-ci ildə Elmlər Akademiyasında etdiyi məruzədə söz açmış və 1947-ci ildə nəşr edilmiş “Азербайджанская архитектура. Эпоха Низами” (“Azərbaycan memarlığı. Nizami dövrü”) məqalələr toplusuna estampajın şəklini və tərcüməsini də əlavə etmişdir. Əjdər Ələsgərzadənin tərcüməsində kitabənin mətni bu cür səslənir: “Bu nurlu məzar şeyxlər şeyxi, Əbu-Məhəmməd, ibn-İlyas, ibn-Yusif, ibn-Zəki, Nizaməddin Müəyyədindir. Orucluğun dördüncü günü, altı yüz beşinci il tarixində.” Ötən əsrin 30-cu illərinin sonunadək həm Şərq, həm də Qərb elmi ictimaiyyətində Xəqaninin və Nizaminin anadan olma və vəfat tarixləri haqqında müxtəlif fikirlər səslənirdi. Ə.Ələsgərzadənin Xəqani və Nizaminin sinə daşlarının estampajının oxunması və nəşr etdirməsi təzadlı və qeyri-obyektiv fikirlərə son qoydu [6, s. 369-397].

1939-cu il noyabr ayının 1-də Nizaminin yubileyinə hazırlıq məqsədi ilə, Azərbaycan SSR Xalq Komissarları Şurasının 4972 №-li qərarına əsasən, Nizami Muzeyi yaradılmışdır. Bu muzey Nizami Gəncəvinin xatirə muzeyi kimi təsis olunmuşdur. Muzeyin əsas fəaliyyət istiqaməti XI-XII əsrlərin zəngin ictimai-mədəni prosesləri fonunda görkəmli şair Nizami Gəncəvinin həyat və yaradıcılığının araşdırılmasına yönəldilmişdi. Sonralar ekspozisiyası xeyli genişləndirildiyindən, bu elm-sənət ocağı 1959-cu ildə Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinə çevrilmişdir.

1941-ci ildə Nizaminin yubiley tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq, Azərbaycan Abidələrinin Mühafizəsinin Mərkəzi İdarəsi və Azərbaycan SSR Elmlər Akademiyası heykəltaraş-antropoloq, SSRİ Elmlər Akademiyasının N.Y.Marr adına Maddi – Mədəniyyət Tarixi İnstitutunun elmi əməkdaşı M.M.Gerasimova dahi şairin simasının (portretinin) bərpası təklifi ilə müraciət etmişdir.

M.M.Gerasimov məsələnin aktuallığını nəzərə alaraq, tez bir zamanda razılığını bildirmişdir. O, Yubiley Komitəsinə ünvanladığı məktubların birində bu haqda yazırdı: "Məlumdur ki, Nizami ilə əlaqədar heç bir ikonoqrafik material mövcud deyildir. Bununla belə, dahi Azərbaycan şairinə heykəl ucaldılmalıdır. Mənim kəllə sümüyü üzrə bərpa metodum çoxdan dünyasını dəyişmiş insanın həqiqi portretinin (simasının) bərpasına imkan yaradır. Ümid edirəm ki, sizin sayənizdə mən Nizaminin portreti üzərində işləmək və bununla da heykəltaraşlara şairin sənədli obrazını ərməğan etmək imkanı qazanacağam. Sizə kəllə sümüyü üzrə bərpanın bir neçə yoxlama-sınaq nümunələrini göndərirəm" [5, f. 159, s.v.1, iş 271, s.1-2].

Hadisələrin sonrakı gedişindən naməlum səbəblər üzündən Nizaminin obrazının bərpa edilmədiyini görürük. Heç bir arxiv sənədində, hətta M.M.Gerasimovun yerinə yetirməyi planlaşdırdığı işlər siyahısında bu barədə heç bir məlumata rast gəlinmir.

Dahi şairin portretinin bərpası məqsədilə rəssamlar arasında müsabiqə elan edilmiş, qaliblər üçün I və II dərəcəli mükafatlar nəzərdə tutulmuşdu. 1941-ci ildə şairin 800 illik yubileyi ərəfəsində müsabiqəyə yekun vuran Komissiya bərpa variantlarından heç birini I mükafata layiq görməmişdir. İkinci mükafat rəssam Qəzənfər Xalıqovun çəkdiyi portretə verildi. Sonralar bu portret əsasında məşhur heykəltaraş, SSRİ İncəsənət Akademiyasının həqiqi üzvü Fuad Əbdürrəhmanov şairin heykəlini hazırladı. Bu gün dünyanın bir çox yerlərində ucalan möhtəşəm N.Gəncəvi heykəllərinin müəllifi də Fuad Əbdürrəhmanovdur.

Azərbaycanın dahi mütəfəkkir şairi Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyinin təntənəli şəkildə keçirilməsinə hazırlıq istiqamətində görülən işlər institutda Azərbaycanın orta əsrlər tarixinin tədqiqi və nəşri sahəsində də ciddi dönüş yaratmışdı. Nizami irsinin əsl elmi-tənqidi mətninin hazırlaması kimi şərəfli vəzifəni SSRİ EA-nın Azərbaycan Filialı öz öhdəsinə götürmüşdü. 1937-ci ildə Nizaminin əsərləri SSRİ EA Azərbaycan Filialının Tarix, Dil və Ədəbiyyat İnstitutu çapa hazırlamağa başladı.1938-ci ildə şöbənin rəhbərliyi tərəfindən Leninqraddan professor Y.E.Bertels və Əbdülkərim Əlizadə Bakıya dəvət edilmişdilər. Bakıda Nizami "Xəmsə"sinin elmi-tənqidi mətninin hazırlanması məqsədilə mətnşünaslar heyəti yaradılmışdır. Həmin heyətə Bakıdan Ə.Ələsgərzadə, F.Babayev, Leninqraddan isə Ə.Ə.Əlizadə, L.A.Xetaqurov və O.İ.Smirnova daxil edilmişdilər. "Xəmsə"nin tam tənqidi mətninin redaktəsi professor Y.E.Bertelsə, Bakı heyətinə rəhbərlik isə Ə.Ə.Əlizadəyə tapşırılmışdır.

"Xəmsə"yə daxil olan məsnəvilərin elmi-tənqidi mətninin hazırlanması işi heyət arasında aşağıdakı şəkildə bölüşdürülmüşdü: "Sirlər xəzinəsi" ("Məxzənül-əsrar") və "Şərəfnamə" ("İsgəndərnamə"nin bir hissəsi) – Ə.Əlizadə, "Xosrov və Şirin"-L.A.Xetaqurov, "Leyli və Məcnun"- Ə.Ələsgərzadə və F.Babayev, "Yeddi gözəl" ("Həft-peykər") – O.İ.Smirnova və F.Babayev, "İqbalnamə"- F.Babayev [1, f. 5, s.1, s.v.26, q. 2, v. 26].

"İsgəndərnamə" poemasının birinci hissəsinin fars dilindən Azərbaycan dilinə tərcüməsi Abdulla Şaiqə (Talıbzadə) həvalə olunmuşdu. Bu böyük, əzəmətli iş yüksək səviyyədə başa çatdı. Nizami Gəncəvinin "İsgəndərnamə" poemasının "Şərəfnamə" qisminin elmi-tənqidi mətni 1947-ci ildə çapdan çıxdı. 1948-ci ildə Ə.Ə.Əlizadə və görkəmli rus şərqşünası akademik Y.E.Bertels (mətnin redaktoru) Nizami Gəncəvinin "Şərəfnamə" əsərinin elmi-tənqidi mətninə görə SSRİ Dövlət mükafatına layiq görüldülər. İlk dəfə olaraq Nizami əsərlərinin mətni elmi-tarixi və mətnşünaslıq tədqiqatı prinsipləri əsasında orijinallarına

müvafiq bir şəkildə təshih və təhqiq edilmişdi. Bu da Nizami irsinin öyrənilməsi üçün geniş imkanların açılması və onların daha uğurlu həllinə bir təkan demək idi [3, s.179; s. 138].

Azərbaycan tarixi üzrə əhatəli məlumatlar akademik N.Y.Marrın oğlu iranşünas Y.N.Marrın redaktəsi ilə 1935ci ildə - "Xəqani-Nizami-Rustaveli" silsiləsinin birinci sayında təqdim olunmuşdur. Nizami və Xaqani yaradıcılığını dərindən bilən Y.N.Marr, bütün müəyyənliyi və qətiliyi ilə Nizaminin adını Qafqazla, ilk növbədə isə Azərbaycanla bağlayır: "...Nizami Qafqaz üçün, xüsusilə, son zamanlaradək öz ədəbiyyatında fars ənənəsini qoruyub saxlamış o etnik qrup üçün, yəni gəncəli şairin, hər necə olursa olsun, İran deyil, daha şərəfli olduğu Azərbaycan üçün özününküdür". Ümumiyyətlə Y.N.Marr, Nizamini Azərbaycan xalqı üçün "özününkü", doğma şair olmasını iddia etməklə, şübhəsiz, ona düzgün qiymət vermişdir.

Alimlər böyük yubiley tədbirlərində də fəal iştirak edirdilər. Qeyd olduğu kimi, hökumət Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin yubileyinin keçirilməsi barədə bir sıra mühüm qərarlar qəbul etmişdi. Bu yubiley ölkənin bütün guşələrində qeyd edilmişdi. Məsələn, 1941-ci il oktyabrın 17-də topların gurultusu, aviasiyanın fasiləsiz bombardmanı altında Leninqraddakı Ermitajda Nizaminin 800 illik yubileyi alimlərin və ədəbiyyatçıların iştirakı ilə təntənəli şəraitdə qeyd edilmişdi.

1941-ci il noyabrın 1-də Gəncə şəhərində şəhər İcraiyyə komitəsinin Nizaminin 800 illiyinə həsr edilmiş təntənəli yığıncağı keçirilmişdi. Yığıncağı SSRİ EA Azərbaycan filialının sədr müavini H.N.Hüseynov açıq elan etmişdi. Tarix İnstitutunun direktoru İ.A.Hüseynov "Şairin vətəni", Nizami adına Ədəbiyyat və Dil İnstitutunun direktoru M.A.Dadaşzadə "Nizami böyük şair və vətənpərvərdir" mövzularında məruzələrlə çıxış etmişlər. Bundan əlavə, Səməd Vurğun "Nizami və dünya mədəniyyəti", M.Rəfili "Nizami rus xalqının qəhrəmanlığı haqqında" mövzusunda məruzələr etmişlər [7, s. 199].

Ötən əsrin 50-60-ci illərdə akademik Ə.Ə.Əlizadə Nizami Gəncəvinin "Məxzənül-əsrar" ("Sirlər xəzinəsi") poemasının elmi-tənqidi mətnini (Bakı,1960) tərtib və nəşr etdirməklə məşğul olmuşdu. Nizaminin fəlsəfəsi haqqında A.Makovelskinin "Nizaminin fəlsəfi və ictimai-siyasi görüşləri" və R.Nurullayevin əsərləri çap olunmuşdur.

Ə.Ə.Əlizadə şərqşünasların 1960-cı ildə Leninqradda keçiriləcək XXV Beynəlxalq Konqresinə hazırlıq məqsədilə vaxtilə respublika rəhbərliyi qarşısında E.Bertelsin redaktəsi ilə Azərbaycan və müttəfiq respublikalardan olan digər alimlər tərəfindən hazırlanmış Nizami Gəncəvinin "Xəmsə"sinin elmi-tənqidi mətninin nəşr edilməsi məsələsi qaldırdı. Həmin mətn Paris Milli Kitabxanasının iki, Oksford və Britaniya Muzeyi, Ermitaj və Leninqrad Universitetinin, SSRİ Şərqşünaslıq İnstitutu və Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əlyazmaları əsasında tərtib edilmişdi. Ə.Ə.Əlizadə belə hesab edirdi ki, Nizami Gəncəvinin "Xəmsə"sinin elmi-tənqidi mətninin nəşr edilməsi şərqşünasların XXV Beynəlxalq Konqresinə ciddi bir elmi hədiyyə olardı. Ə.Ə.Əlizadənin, az sonra isə Y.H.Məmmədəliyev və Ə.S.Sumbatzadənin müraciətlərini nəzərə alaraq, 1958-ci ilin iyun ayının 10-da Azərbaycan KP MK bürosu "Xəmsə"nin elmi-tənqidi mətninin nəşri haqqında qərar qəbul etdi [4, s. 4].

Ə.Ə.Ələsgərzadənin Azərbaycan SSR EA-nın Tarix İnstitutunun "Şərqşünaslıq" şöbəsinin müdiri vəzifəsində çalışdığı dövrdə elmi fəaliyyəti iki istiqamətdə davam edirdi: elmi-tənqidi mətnlərin yaradılması və əlyazmaların elmi nəşrə hazırlanması. O, 1958-ci ilədək Azərbaycan epiqrafikası üzrə çox böyük və xeyli dəyərli materiallar toplamış, əhəmiyyət kəsb edən bütün məşhur epiqrafik abidələri qeydə almış, Nizami dövrünün abidələri – Gəncə darvazaları, Məhəmməd məscidi, Bakıdakı Qız qalası, Naxçıvandakı Mömünə xatun türbəsi, Əlincə sahilindəki Xanəgah, Qarabağlar kəndindəki mavzoley və minarələr, Mərdəkandakı kvadrat və dairəvi qüllələr, Nizaminin və Xəqaninin məzarları üzərindəki sinə daşları,

Nardarandakı qüllə, Gəncədəki İmamzadə türbəsi (VIII əsr) üzərindəki yazıları və s. Oxumuşdur [6, s. 369-397].

Nizami Gəncəvinin həyat və yaradıcılığının nəşri, tədqiqi və təbliği bu gün də diqqət mərkəzindədir və bu sahədə atılan hər bir uğurlu addım bizi böyük Azərbaycan şairinin ölməz bəşəri ideyalarına daha da yaxınlaşdırır, bəşəriyyətin xoşbəxtliyi uğrunda mübarizədə onu bizim mənəvi müasirimizə çevirir.

ƏDƏBİYYAT


1. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Elmi İrs Mərkəzinin Arxivi (AMEA RHEİMA).
2. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Elmi Arxivi (AMEA TİEA), inv. №1003. Акт комиссии от 2 сентября 1940 г. об обследовании места захоронения и гроба с останками Низами.
3. Məhərrəmov T. Akademik Əbdülkərim Əlizadə. - Onun işıqlı xatirəsi. Azərbaycan şərqşünaslıq elminin banisi akademik Əbdülkərim Əlizadə (sənədlər, məktublar, xatirələr). Bakı, 2005.
4. Mahmudov Y.M. Ustad şərqşünas Əbdülkərim Əlizadə. - Azərbaycan şərqşünaslıq elminin banisi akademik Əbdülkərim Əlizadə (sənədlər, məktublar, xatirələr). Bakı, 2005.
5. S.Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi (AR DƏİA).
6. Алескерзаде А.А. Надписи архитектурных памятников Азербайджана периода Низами. - Архитектура Азербайджана. Эпоха Низами. Баку, 1947.
7. Багирзаде А. Интеллигенция Азербайджана в годы Великой Отечественной войны. Баку, 1989.
8. Джафарзаде И.М. Развитие археологических работ в Азербайджанской ССР.- Известия Академии наук Азербайджанской ССР, 1945. № 6; Сумбатзаде А.С. Азербайджанская историография Х1Х-ХХ веков. Баку, 1989.
9. Щеблыкин И.П. К истории мавзолея на могиле Низами. – Известия АзФАН СССР, 1942, №5.


УДК 82-1. 512. 162

*Э.Л.Гасанов*
*Ученый секретарь Гянджинского отделения НАНА*

## О НАУЧНОМ ИЗУЧЕНИИ НАСЛЕДИЯ НИЗАМИ ГЯНДЖЕВИ
*РЕЗЮМЕ*

*Ключевые слова:* Низами Гянджеви, поэт, Гянджа, исследование наследия

Краткое содержание В статье исследованы научные исследования творчества всемирно известного азербайджанского мыслителя и поэта Низами Гянджеви в первой половине прошлого века. Здесь особое внимание уделяется изучению наследия гениального мыслителя на основе не только литературных источников, но и на основе многочисленных исторических источников и архивных документов.

UDC 82-1. 512. 162

*E.L.Hasanov*
*Scientific Secretary of Ganja Branch of ANAS*

EXPLORING THE ACADEMIC DIMENSIONS OF NIZAMI GANJAVI'S HERITAGE

*SUMMARY*

*Key words:* Nizami Ganjavi, poet, Ganja, heritage research

The article examines scientific research into the work of the world famous Azerbaijani thinker and poet Nizami Ganjavi in the first half of the last century. Here, special attention is paid to studying the heritage of the brilliant thinker based not only on literary sources, but also on the basis of numerous historical sources and archival documents.

***Daxil oldu: 02.10.2023-cü il***